AZƏRBAYCAN RESPUBLİKASI
MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ

F.KÖÇƏRLİ adına RESPUBLİKA UŞAQ KİTABXANASI



# Uşaq Kitabxanasında Reklam işinin təşkili

Bakı-2015

**Redaktor:** **Şəhla Qəmbərova - F. Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru**

**Tərtib edəni: Nərgiz Məcidova – F.Köçərli adına Respublika Uşaq Kitabxanası elmi-metodika şöbəsinin baş kitabxanaçısı**

**Korrektor:** **Məmmədli Ruhiyyə - F.Köçərli adına Respublika Uşaq Kitabxanası elmi-metodika şöbəsinin müdiri**

## Uşaq Kitabxanasında Reklam işinin təşkili

Dünya tarixçilərinin apardığı tədqiqatlardan da bəlli olur ki, kitabxanaların tarixi yazının və kitabın tarixi qədər qədimdir. İlk yarandığı vaxtlarda kitabxana sözü yalnız kitab saxlayıcısı kimi başa düşülürdüsə, bu gün informasiya daşıyıcısı olaraq bir çox mənanı daşıyır. Yaranmış ilk kitabxanaların funksiyası əlyazmaları qoruyub saxlamaq olsa da, sonradan saxlanan əlyazmaların istifadə edilməsi üçün ikinci funksiya olan kitabxananın xidmət funksiyası meydana gələrək fəaliyyətini genişləndirmişdir. Bu gün isə kitabxanalar hər cür informasiyanı cəmiyyət üzvləri arasında yaymağı qarşısına məqsəd qoyan, informasiya resurslarını toplayan, qoruyub saxlayan, onu insanların informasiya təminatının ödənilməsinə yönəldən informasiya daşıyıcısı kimi mühüm əhəmiyyət kəsb edir.

Kitabxanalar, təkcə informasiyanın oxuculara çatdırılması yox, həm də biliklərin əldə edilməsinə yardım edən, informasiyanı təkcə təqdim etməklə kifayətlənməyərək, onunla necə davranmağı, onu necə nizamlamağı, ondan necə istifadə etməyi istifadəçilərə aşılayan bir müəsisədir. Kitabxanalar arasındakı fəaliyyətlərinin əlaqələndirilməsində, kitabxanaya oxucu cəlbinin artırılması kitabxana reklamı işinin təşkilini vacib hesab edir. Kitabxana reklamı yalnız istifadəçiləri deyil, həm də kitabxanaçıları fəallaşdırmaq imkanına malikdir.

Qeyd etmək lazımdır ki, hələ sovet dönəmində kitabxanalarda bu iş çox çətin və ağır həyata keçirilsə də, hazırda kitabxana təcrübəsində reklam işinin düzgün təşkilinə xüsusi diqqət yetirilir.

Uşaqlarda kitaba sevgi, mütaliəyə həvəsi oyatmaq ailədən başlasada, kitabxanalar uşaqlarda mütaliəyə marağın artırılması, bədii estetik zövqün förmalaşmasında xüsusi rol oynayır. Uşaq kitabxanalarında keçirilən rəngbərəng kütləvi tədbirlər, kitabxanaya oxucu cəlb etməklə yanaşı, uşaqları kitabxana mühiti ilə tanış edir, məktəblilərə müəyyən biliklər qazanmağa kömək edir. Bu baxımdan respublikamızda uşaq kitabxanalarının əhəmiyyəti nəzərə alınaraq, F.Köçərli adına Respublika Uşaq kitabxanasında da informasiya xidməti dövlət proqramına uyğun inkişaf etdirilir. Çünki, məhz mütaliə uşaqların əldə etdikləri biliklərin uzun müddət hafizədə qalması üçün ən etibarlı vasitədir.

F. Köçərli adına RUK - sı 1965- ci ildə uşaqlara xidmət işinin təşkilini yaxşılaşdırmaq üçün Qorki adına kitabxananın nəzdində yaradılmışdır. Kitabxana uşaqlara xidmət işinin yeni forma və metodlarının meydana gəlməsi, uşaq kitabxanalarına metodik mərkəz kimi köməkliklərin göstərilməsi istiqamətində çox böyük işlər görmüşdür. Uzun illər uşaqlara səmərəli kitabxana xidməti göstərən F. Köçərli adına Respublika uşaq kitabxanası, dövlətimizin uşaqlara qayğısı nəticəsində 2010-cu ildə yeni binaya köçürülmüşdür. Burada oxucular üçün nağıl otağı, incəsənət otağı, böyük və kiçik oxu zalları, elektron resurslar bölməsi, multimedi, internet resurs mərkəzi yaradılmışdır. F. Köçərli adına Respublika Uşaq kitabxanası uşaq və yeniyetmələrə xidməti əsas götürdüyündən reklam işinin təşkilini, bilavasitə kiçikyaşlı və yeniyetmə oxucuların tələbatına uyğun olaraq tənzimləyir. Ümumiyyətlə uşaq auditoriyası bütövlükdə geniş mənalı anlayış olub, hər bir uşaq üçün yeni bilik, yeni bacarıqlar, yeni inkişaf səviyyəsi deməkdir. Ona

görə də uşaq auditoriyası üçün düzgün tərbiyə, təlim baxımından yaş qruplaşması daha əhəmiyyətlidir. Uşaqların yaş qrupuna nəzər salsaq görərik ki, 3 yaşadək olan uşaqlarin tərbiyəsi üçün yük valideynlərin üzərinə düşür. Bu yaşda onlar kitabxanalardan istifadə edə bilmədiklərindən əsasən kommunikasiya vasitələrindən istifadə etməklə danışıq xüsusiyyətlərini formalaşdırırlar. 6 yaşadək olan məktəbəqədər dövr - məktəb yaşına çatmamış uşaqlardır ki, bu yaşda onlar valideyndən asılı olurlar. Bu yaşda uşaqlar adətən bağça yaşlı uşaqlar hesab edilir. Baxdıqları müəyyən cizgi filmi qəhrəmanları onlar üçün bir qəhrəmana çevrilir. 6 yaşdan yuxarı birinci sinif şagirdi olan uşaqlar isə bağcadan ayrılaraq ancaq müəllimlərinə doğru qərar verici kimi baxdıqlarından, heç kəsin müəllimələri kimi düzgün danışmasına inanmırlar. 10-12 yaşlı kiçik yeniyetmələr isə valideynləri ilə məktəb və həmyaşıdları arasında seçimdə qalırlar. Ətraf mühiti seçən uşaq auditoriyası üçün istiqamət mənbəyini düzgün seçmək, onları düzgün istiqamətləndirmək lazımdır. Bu seçimdə uşaqlarda mütaliəyə, elmə marağı artırmaq üçün sirli-sehirli bir aləm hesab edilən uşaq kitabxanalarının işi əvəzsizdir.

Yaşadığımız dövrdə reklam hər bir sahənin ayrılmaz hissəsindən birinə çevrilmişdir. Qeyd etmək lazımdır ki, hələ sovet dönəmində kitabxanalarda reklam işinin təşkili çox çətin həyata keçirilsədə, hazırda kitabxana təcrübəsində reklam işinin düzgün təşkilinə xüsusi diqqət yetirilir**. ABŞ-dan başlayan 150-200 illik bir** tarixi olan ilk reklamın, yarandığı vaxtlar kapitalizmin inkişafında böyük rolu olmuşdur. Sonralar kapitalizmə yeni qədəm qoymuş Rusiyada və xüsusilə də Bakıda insanların həyatına daxil olan bu sahə bu gün daha da təkmilləşmişdir.O, dövrdə plakatlar şəklində təqdim edilən reklam insanların həyatında istehsalçı – istehlakçı münasibətlərinin qurulmasında və şəhər mühitində məhsul və fəaliyyət haqqında informasiyanın çatdırılmasında böyük rol oynamışdır. İlk açıq hava reklamlarının kökünü araşdırarkən reklamın tarixinə dair materiallara Azərbaycanda da rast gəlirik. Bunlar Azərbaycanda Tarixi reklamın ilk mənbələri sayılan qayaüstü rəsmlər hesab edilir. İlk dəfə 1939-1940-cı illərdə Qobustanın cənub-şərq hissəsində - Böyük daş, Kiçik daş, Cingirdağ və Yazılı təpə aşkara çıxarılmış bu abidələr informasiya ötürücüsü kimi açıq havada daşlara həkk edilmiş, informasiyanın ötürülməsi üçün əlaqə yaratmışdır. Bu Azərbaycan reklamının proto reklamın ilk insan düşüncəsinin, onun psixoloji anının informasiya ötürücüsü kimi açıq havada daşlara həkk etməklə, daha da irəli getmiş, informasiyanın ötürülməsi baxımından əlaqənin yaradılması üçün ilkin şərait yaratmışdır. Yaxşı ki, bu tarixin reklamı bir vasitə olaraq daşlara hopdurulmuş və minilliklərdən keçərək bu gün də müasirlərimizi məlumatlandırır. Reklam işinin düzgün qurulmasının xeyri ondadır ki, burada oxucu kitabxana haqqında müəyyən məlumat aldığından onun kitabxanaya marağı artır. Bu da kitabxana işinin təşkilində əsas rol oynayan oxucu cəlbini artırır. Reklamın faydası həm də kitabxanaların oxucu kontingentinin yüksəlməsi ilə, vaxt ötdükcə statusunu da yüksəldir. Uşaqlarda kitaba sevgi, mütaliəyə həvəsi oyatmaq elə ailədən başlasa da, kitabxanalar uşaqlarda mütaliəyə marağın artırılması, bədii estetik zövqün förmalaşmasında xüsusi rol oynayır. Bu baxımdan respublikamızda uşaq

kitabxanalarının əhəmiyyəti nəzərə alınaraq, F.Köçərli adına Respublika Uşaq kitabxanasında da kütləvi informasiya xidməti dövlət proqramına uyğun inkişaf etdirilir. Kitabxana şəraitində oxucuların, bütövlükdə istifadəçilərin kitabxana fondundan və soraq-biblioqrafiya aparatından istifadəsini asanlaşdıran istiqamətverici informasiya sırasında reklam informasiyasının-yəni reklamın xüsusi rolu vardır. Bu məqsədə xidmət edən reklam kitabxana reklamı adlanır. Kitabxana reklamı-kitabxana haqqında, kitabxana xidməti barədə, eləcə də kitabxanadakı çap məhsullarının məzmunu, əhəmiyyəti barədə oxucuları məlumatlandırmaq, onlarda bu xidmətdən istifadə etməyə maraq yaratmaq məqsədinə xidmət edir. Kitabxana reklamı yalnız istifadəçiləri deyil, həm də kitabxanaçıları fəallaşdırmaq imkanına malikdir.

Bilirsinizmi, bu gün dünyada hər ölkə öz xarakterinə uyğun reklamın yaranması uğrunda mübarizə aparır. Biz də Azərbaycanda milli reklamın daha da təşəkkülü üçün əlimizdən gələni etməliyik. Ümumiyyətlə, reklama təkcə istehsalçı ilə istehlakçı arasında bir vasitə kimi baxmaq olmaz və bu hamının ümumi işi olmalıdır. Bu gün dünyada reklam mədəniyyətlərarası körpü rolunu oynayır. Bir uşaq müəssisəsi olaraq kitabxanada reklam məqsədi ilə istifadə edilən çap məhsullarında, mövzu başlıqlarında, ana dili və millilik prinsipi qorunur. Əsas məqsədimizdən biri də uşaq müəsisəsi olaraq Azərbaycan dilinin təmizliyini qorumaq və zənginliyindən istifadə etməkdir.

**İmic Reklamı** - Kitabxana reklamın təşkilində ilk öncə reklamin formalarından biri olan imic reklamının düzgün təşkili lazmdır. Kitabxanada İmic reklamı ilk növbədə kitabxananın fəaliyyətini tərənnüm üçün həyata keçirilir. İmic reklamı bir qayda olaraq kitabxana haqqında məlumatlarla əhalini maarifləndirmək üçün istifadə edilir. Reklam üçün əsas kitabxana haqqında məlumatlar həkk edilmiş cib kalendarları............ və s. də istifadə edilir. İmic reklamı ilk növbədə təşkilatın hədəf əhəmiyyətinin artırılması üçün həyata keçirilir. İmic reklamı ayrı-ayrı məhsullar üzərində mərkəzləşmir, daha çox şirkətin nə təklif etdiyini təqdim edir. Bu tipli reklamlar sadəcə "biz nə edirik" konteksində məlumat vermək üçün təqdim olunur.

Kitabxana reklamı xidmət barədə, çap məhsulları və onların məzmun istiqaməti üzrə istifadəçilərdə təsəvvür yaratmaqla bərabər, hər hansı çap məhsulunu da, nə vaxt və hansı mövcud qayda ilə əldə etmək barədə də məlumat verir. Belə ki, reklamlarda kitabxananın yerləşdiyi ünvan, kitabxana şəraitində kataloq və kartoteka sisteminin, biblioqrafik göstəricilərin harada yerləşdiyi, kitabxana tərəfindən həyata keçirilən kütləvi tədbirlərin nə zaman, harada keçiriləcəyi, eləcə də tədbirin əsas istiqamətlərinin tərkibi haqqında aydın təsəvvür yaradıla bilər. Reklam həm də oxucuların ədəbiyyat axtarışına istiqamət vermək üçün əlifba və sistemli kataloqlardan, texniki vasitələrdən necə istifadə etmək yolları barədə də məlumat verir. Hər bir reklamın öz məqsədi baxımından oxucuda emosianal istək yarada bilmək imkanı xüsusi diqqət mərkəzində olmalıdır. Çünki, emosianal istək insanı coşğun fəaliyyətə, məqsədli yaradıcılıq mühitinə yönəldir.

.

**Buklet** – kataloq və prospektdən fərqli olaraq kitabça halına salınan, ancaq dönə-dönə qatlana bilən şəkildə çap edilən nəşriyyat məhsuludur. Qatlanmış şəkildə bukletlər, müxtəlif ölçülərdə, həcmlərdə və variantlarda buraxıla bilər. Lakin açıq vəziyyətdə onun ölçüsü standart tipoqrafiya vərəqindən böyük olmamalıdır.

**Plakat** –bütün hallarda birtərəfli şəkildə çap edilən nəşriyyat məhsuludur (çap məhsuludur). İri rəsmlərlə və ya şəkillərlə mallar və xidmətlər haqqında verilən məlumatlar, iri reklam başlıqları ilə müşayət edilən plakatlarda alıcılara inandırıcı məlumatlar vermək mümkün olur. Plakatlardan sərgi salonlarının, ticarət və nümayişetdirmə otaqlarının, xidməti otaqların, malların qəbulu və danışıq otaqlarının və s. tərtibində istifadə edilir.

**Reklam-roliklər** – vaxt etibarilə 15 saniyədən bir neçə dəqiqəyə qədər, geniş əhali kütləsinə xidmətlər haqqında məlumat vermək üçün nümayiş etdirilir. Kitabxanada bu reklam növündən seminarlarda böyük kitab sərgilərində istifadə etmək olar.

Kitabxana reklamında adətən müxtəlif vasitələrdən və formalardan istifadə olunur. Bunlar əyani, mətbuat və şifahi vasitələrdir. Bundan başqa kitabxanalar radio və televiziya reklamından da istifadə edə bilərlər. Bu gün kitabxana fəaliyyətində kitabxanaya oxucu cəlbinə kömək edən reklamın aşağıda qeyd olunan bir sıra formalarından daha çox istifadə olunur: ***Elan, bildiriş, kitabxana plakatları***. Bu cür plakatlarda kitabxananın təşkil edəcəyi hər hansı kütləvi tədbir haqqında, yaxud bir ay ərzində keçirilməsi nəzərdə tutulan tədbirlər barədə məlumatlar əks etdirilir. Bundan başqa kitabxanalarda metodik xarakterli plakatlardan da istifadə edilir.











Kitabxana reklamı ilə əlaqədar kitabxana haqqında ümumi xarakterli məlumat vermək məqsədilə çap olunmuş bələdçilər, məlumat kitabçaları, prospektlər, vərəqlər və s. oxucularda kitabxana haqqında məqsədyönlü təsəvvür yaradır.

Bu işlə kitabxana istifadəçiyə reklam vasitəsilə informasiyanın yayılması, verilənlərin informasiya tələbatçılarına çatdrılması prosesinə kömək edir. Reklam ilə lazımi məlumatların seçilməsi istifadəçilərin müstəqil olaraq özləri tərəfindən həyata keçirilir. Reklamlarımızda ana dili və millilik prinsipinə önəm verilir. Bu gün dünyada hər ölkə öz xalqının xarakterinə uyğun reklamın yaranması uğrunda mübarizə aparır. Biz də uşaq müəsisəsi kimi Azərbaycanda millilik prinsipinə əsəslanaraq reklamın daha da təşəkküllü üçün əlimizdən gələni etməyə çalışırıq. Bütün dillərə hörmət və ehtiramla yanaşır, müxtəlif xalqların səfirlikləri, nümayəndələri ilə birgə təşkil edilən tədbirlərin, sərgilərin başlıqlarında ana dilimizdəki sözlərdən istifadəyə xüsusi diqqət veririk. Azərbaycanda yaşayıb, fəaliyyət göstərən bir sıra xalqlarla birgə təşkil edilən tədbirlərdə Azərbaycan qanunvericiliyinə görə, reklam əvvəlcə Azərbaycan dilində olmalıdır.
Kitabxana reklamı ilə əlaqədar kitabxana haqqında ümumi xarakterli məlumat vermək məqsədilə çap olunmuş bələdçilər, məlumat kitabçaları, vərəqlər və s. oxucularda kitabxana haqqında məqsədyönlü təsəvvür yaradır. Kitabxanada görülən biblioqrafik xidmət növləri vardır ki, bunlar kitabxana işi ilə yanaşı kitabxananın tanıtımı üçün bir vasitədir. Oxucu cəlbinə kömək edən vasitələrdən biri də yubilyar yazıçı və şairlər haqqında hazırlanmış slaydlardır. Həmin slaydlar kitabxananın foyesində qurulmuş monitorda nümayiş etdirilir.

Elektron kitabxanaların çoxluq təşkil etdiyi bir vaxtda, kitabxana haqqında elektron reklamının üstünlikləri onunla izah edilir ki, istənilən coğrafi ərazidə yerləşməsindən asılı olmayaraq istifadəçi kitabxanaya gəlmədən, həmin kitabxananın elektron resursları vastəsi ilə birbaşa məlumat alıb, kitabxanadan istifadə edə bilir.100 nəfərə düşən internet-istifadəçilərinin sayına görə, Azərbaycan göstərici ilə 120-ci yeri tutub. Qeyd edək ki, indi ölkədə hər 100 nəfərə 5,6 internet istifadəçisi düşür. Orta hesabla dünyada 100 nəfərə düşən internet isdifadəçilərinin sayı 18,4-ə bərabərdir. Bu, qonşu ölkələrlə müqayisədə yüksək göstəricidir. Amma biz bundan da yüksək göstəriciyə nail ola bilərik.

Əgər internet reklamı bu zəncirin bir halqasıdırsa, digər halqası da web saytın özüdür. Bunun üçün web saytların yaradıcıları onun fəaliyyətini diqqətdə saxlamalıdırlar.Buna baxmayaraq, bütün dünyada internet reklamı ümumi reklam bazarında hələ ki, çox kiçik bir yer tutur. Ancaq, inkişaf sürətinə görə digər reklam daşıyıcılarından qat-qat irəlidədir. Ölkəmizdə də əvvəlki illərlə müqayisədə bu inkişafı görmək mümkündür. İnternetdə olan informasiyanın artımı insanların internetdə keçirdiyi vaxtın çoxalması ilə müşayiət olunur. İnternet reklamının bu qədər cazibədar olmasının ən əhəmiyyətli səbəblərindən biri olan Veb – resursları vasitəsi ilə reklamın təşkili Veb – səhifələri ilə həyata keçirildiyindən burada informasiyalar saytlar formasında təqdim olunur. Sayt - informasiya toplusunun

yerləşmə məkandır. Onlar dəyişikliyə məruz qalırlar. Sayta yerləşdirilən məlumatların tamlığı və etibarlılığına əsaslı şəkildə nəzarət olunur. Paylanmış informasiya resurslarının uzaq məsafədən əldə edilməsi, internet vasitəsilə kitabxana haqqında məlumat üçün əlverişli bir vasitədir.
**Verilənlər bazası kimi saytlar müxtəlif əsaslara** görə qurulur: Uşaq kitabxanalarında adətən informasiya dolğunluğu ilə illüstrasiyalı saytlar fərqləndirilir. Respublukamızda uşaq və yeniyetmələrə kitabxana-informasiya xidməti göstərən, elmi-metodiki mərkəz kimi fəaliyyət istiqamətlərini quran F.Köçərli adına Respublika Uşaq kitabxanasının elektron saytı da dizayn baxımından çox cəlbedici qurulmuşdur. Saytın **ana səhifəsində** kitabxanadan istifadə qaydaları haqqında məlumat yerləşdirilmişdir. **"Kitabxana haqqında"** bölməsindən istifadəçilər kitabxananın yaranma tarixi haqqında məlumat ala bilərlər. **"Metodik xidmət"** bölməsində yerləşdirilən **"E resurslar"** başlığında metodik mərkəz kimi fəaliyyət göstərən Elmi metodika şöbəsi tərəfindən hazırlanmış metodik vəsaitlər, slaydlar, əlamətdar tarixi günlər təqvimi yerləşdirilmişdir. **"Biblioqrafik xidmət"** bölməsində isə tərtib edilən biblioqrafik göstəricilər, slaydlar, bukletlər yerləşdirilib. Kiçik yaşlı oxucular ***"Süsən sünbül", "Yalançı gözəl","Su pərisi və balıqçı" və s. nağılları "Səsli nağıllar"*** bölməsində dinləyə bilərlər. "Xəbərlər" və "elanlar" bölmələrində isə kitabxanada keçiriləcək tədbirlər haqqında elanlar və keçirilmiş tədbirlər haqqında məlumatlar yerləşdirilmişdir. Kitabxananın nəşri olan "Göy qurşağı jurnalının nömrələri ilə isə oxucular saytımızın **"Göy qurşağı"** bölməsində tanış ola bilərlər. "Elektron kataloq", "Elektron kitabxana " bölməsi oxucuya istədiyi kitabın kitbxanada olub olmamasını öyrənməkdə kömək edər."Digər linklər" bölməsində isə müxtəlif xarici ölkə kitabxanalarının veb ünvanları qeyd olunmuşdur. "Elektron kitabxana" bölməsində olan məlumatları isə uşaqlar həm oxuya həm də öz kompüterlərinə yükləyə bilərlər.

F.Köçərli adına Respublika Uşaq kitabxanasının saytı da bu baxımdan istifadəçiyə kitabxananın quruluşu və funksiyası haqqında dolğun və hərtərəfli məlumat verir.(www.clb.az) Sayta daxil olarkən açılan ilk pəncərənin milli nağıl qəhrəmanımız " Tıq-tıq xanım "ın personajları ilə açılması burada milli ədəbiyyat nümunələrinin kiçikyaşlı uşaqlara sevdirilməsinin necə önəm daşıdığını göstərir. "Kitabxana haqqında məlumat " bölməsində yerləşdirilmiş " Umumi məlumat ", "Layihələr ", " Etiket ", " Kitabxananın şəkilləri " linkləri istifadəçiləri kitabxanada 2001-ci ilin avqustunda Açıq Cəmiyyət İnstitutu tərəfindən həyata keçmiş "Kitabxanada uşaqlar üçün internet-sinfin açılması " layihəsi, uşaqlarda kitaba marağı daha da artırmaq üçün " Gələcəyin dialoqu " və " Danışan kitablar ", adlı kurslar, İnternetdən istifadə qaydaları və kitabxananın şəkilləri ilə

məlumatlandırır. Ekologiya linki kiçikyaşlı istifadəçilərə təbiətlə necə davranmağı, onu sevməyi və qorumağı ziyanlı vərdişlərin insan orqanizminə nə qədər ziyanını təbliğ edir. Bu gün kitabxana reklamının aşağıda qeyd olunan bir sıra formalarından daha çox istifadə olunur. Elan, bildiriş, kitabxana plakatları . Bu cür plakatlar kitabxananın təşkil edəcəyi hər hansı kütləvi tədbir haqqında, yaxud bir ay ərzində keçirilməsi nəzərdə tutulan tədbirlər barədə məlumat əks etdirir. Bundan başqa təlimatı-metodik xarakterli plakatlardan da istifadə edilir. Kitabxanada keçiriləcək görüşlər, anım gecələri, ədəbi bədii gecələr, uşaq həftələri, rəsm müsabiqələri və s. haqqında xəbər tutmaq üçün “ Elan ” lar bölməsi istifadəcilərə kömək edir. Keçiriləcək hər hansı bir tədbiriə hazırlıq mərhələsində oxucular üçün həmin tədbir haqqında elanlar hazırlanıb məktəblərə paylanır, kitabxananın girəcəyində foyedə asılır .





F. Köçərli adına Respublika Uşaq kitabxanası öz vəsaiti kimi “Göy qurşağı ” jurnalının nəşrini də həyata keçirir. Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının 2006-cı ilin mart ayından nəşr olunan “Göyqurşağı” uşaq jurnalı 2006-cı ilin oktyabr ayına kimi “Körpəm” adı ilə nəşr olunub. Jurnal məktəblilərin dünyagörüşünün inkişafına, onlarda vətənpərvərlik hisslərinin daha da güclənməsinə, təhsilə marağın artmasına yardım məqsədi daşıyır. 32 səhifədən ibarət rəngli şəkillərlə nəfis tərtib olunan bu jurnalın hər sayı uşaqlar tərəfindən maraqla qarşılanır. Jurnalın hər sayında əlamətdar tarixi günlər, bayramlar, tarixi və görkəmli şəxsiyyətlər, təhsil müəssisələri haqqında məlumatlar, uşaqların qələmə aldıqları şeir və hekayələr, çəkdikləri rəsmlər dərc olunur. Jurnalda kitabxanaya daxil olan yeni kitablar haqqında oxuculara müntəzəm məlumat verilir. Uşaqların intellektual səviyyələrinin artmasına xidmət edən məntiqi suallarla zəngin əyləncəli səhifə və rubrikalar jurnalı daha da maraqlı edir. “Göyqurşağı” Uşaq Jurnalı Mədəniyyət və Turizm Nazirliyinin göstərişi ilə Azərbaycanın bütün rayonlarının Mərkəzləşdirilmiş Kitabxana Sistemi vasitəsilə ən ucqar dağ kəndlərinə belə yayılır.

F. Köçərli adına RUK-sının oxucuları əsasən ibtidai, orta və yuxarı sinif şagirdləri, lisey, kollec tələbələri eyni zamanda, məktəbəqədər yaşlı uşaqlar və məktəbə getmək imkanından məhrum olmuş oxuculardır.




Səmərəli reklamın olmasında kitabxanalarda reklam tədbirlərinin: təqdımatların, ekskursiyaların, sərgilərin və s. keçirilməsini təşкili də vacibdir. Belə sərgilərdən biri10 fevral 2014-cü ildə F.Köçərli adına Respublika Uşaq Kitabxanasının oxu zalında gənc oxucu-rəssam Ayan Abbasovanın “Qoy həmişə günəş olsun” adlı ilk fərdi sərgisinin açılış mərasimi olmuşdur. Sərgidə Ayanın 45-ə yaxın rəsm işi nümayiş etdirilmişdir. Əsərlərin müəllifi Ayan həm də kitabxananın fəal oxucusu olmuşdur, O, çox bacarıqlı güclü rəng duyumu olan rəngləri seçməyi bacaran bir rəssamdır. Çəkdiyi rəsmlərin əksəriyyəti sulu boya, quaş, karandaşla çəkilmiş, muncuq və qaşlarla bəzədilmişdir. Onun əl işləri məzmun etibarı ilə tamaşaçıları düşünməyə vadar edir. Sərgidə nümayiş etdirilən "Gözümüzün nuru", "Biz sülh istəyirik", "28 may", "Bir bayraq altında birləşək", 20 Yanvar və Xocalı faciəsinə həsr olunmuş rəsmlərin önündən durmadan keçə bilmirsən. Tədbiri giriş sözü ilə kitabxananın direktoru Şəhla Qəmbərova açaraq tədbir iştirakçılarını salamlamış, Ayanın əl işləri, yaradıcı təxəyyülü və xüsusi istedadı ilə bağlı öz fikirlərini söyləmişdir. Həmçinin öz çıxışında qeyd etmişdir ki, balaca rəssam heç bir çətinlik çəkmədən öz yaradıcı təxəyyülünü realizə etməklə bir-birindən maraqlı kompozisiyalar yaratmışdır. Tədbirə toplaşan qonaqlar - Azərbaycan Rəssamlar İttifaqının üzvü, xalq rəssamı Arif Hüseynov, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin əməkdaşları Qənirə Sultanova, Xədicə Quliyeva, Binəqədi rayonu İcra Hakimiyyətinin İdman və Gənclər şöbəsinin müdiri Qüdsi Bayramov, İctimaiyyətlə Əlaqələr şöbəsinin müdiri Dilbər xanım, Ayanın sinif yoldaşları, valideynlər və başqaları balaca rəssam Ayan Abbasovanı təbrik etmiş, haqqında xoş sözlər söyləmiş, bu yolda ona uğurlar arzulamışlar. Gənc oxucu- rəssam Ayan Abbasova milli musiqi alətimiz olan sazda gözəl musiqilər ifa etməklə tədbir iştirakçılarını bir daha feyziyab etdi.

Təbliğat xarakterli reklamlardan – kitabxanada auditoriyaya təsir etmək üçün, müəyyən məlumatlar ötürmək məqsədilə də istifadə edirlər. Kitabxanada təbliğat xarakterli reklamlar əyani, şifahi və yazılı formada həyata keçirilir.

Ədəbiyyatın şifahi təbliği formaları oxucuları yeni ədəbiyyatla tanış edir, müzakirələrdə iştirakı isə oxucularla kitabxanaçının qarşılıqlı fikir mübadiləsi nəticəsində sərbəst fikir formalaşmasına kömək edir. Ucadan oxular, disputlar, qəzet və jurnal icmalları, kitab müəllifləri ilə görüşlər kitabxana reklamında xüsusi rol oynayır.

F. Köçərli adına Respublika Uşaq kitabxanası uşaq və yeniyetmələrə xidməti əsas götürdüyündən reklam işinin təşkilini, bilavasitə kiçikyaşlı və

yeniyetmə oxucuların tələbatına uyğun tənzimləyir. Bu gün dünyada reklam mədəniyyətlərarası körpü rolunu oynayır.

**F.Köçərli adına Respublika Uşaq kitabxanasında reklam işinin təşkili:**

1965-ci il yanvarın 1-də Mədəniyyət Nazirliyinin qərarı ilə M.Qorki adına kitabxananın fondu əsasında yaradılmış F.Köçərli adına Respublika Uşaq kitabxanasında reklam işinin təşkili yüksək səviyyədədir. Kitabxana görkəmli Azərbaycan ədəbiyyatşünası, pedaqoq və publisist Azərbaycan ədəbi dilinin saflığı uğrunda daim mübarizə aparmış simalaradan uşaq ədəbiyyatının inkişafında mühüm xidmətləri olan Firidun bəy Köçərlinin (26.01.1863, Şuşa-1920, Gəncə) adını daşıyır. Bu il 50 illik fəaliyyətini qeyd etdiyimiz F.Köçərli adına Respublika Uşaq kitabxanası öz işini kiçikyaşlı və yeniyetmə oxucuların tələbatına uyğun tənzimləyir. Məlumdur ki, mütaliə insan dünya görüşünün, estetik zövqünün formalaşmasında böyük rol oynayır. Çünki, məhz mütaliə uşaqların əldə etdikləri biliklərin uzun müddət hafizədə qalması üçün ən etibarlı vasitədir. Lakin müasir dövrdə insanlar informasiyanı daha çox virtual vasitələrdən istifadə etməklə əldə etdiklərindən, kitabxanalarda kompüter texnologiyasına əsaslanaraq fəaliyyət göstərən şöbələr daha çox üstünlük qazanmışlar. F.Köçərli adına Uşaq kitabxanası Uşaqlara mütaliə gücünün, kitabxanaya marağın artırılmasında bir çox işlər həyata keçirir. 2014-cü ildə virtual olaraq uşaqları mütaliəyə cəlb etmək üçün, çap əsərlərinin elektron versiyalarından ibarət elektron baza yaradılmışdır. Kitabxana reklamı ilə əlaqədar kitabxana haqqında ümumi xarakterli məlumat vermək məqsədilə çap olunmuş bələdçilər, məlumat kitabçaları, vərəqlər və s. oxucularda kitabxana haqqında məqsədyönlü təsəvvür yaradır.

**Veb** – resursları vasitəsi ilə reklamın təşkili mümkündür ki, bu məlumatlar Veb – səhifələri vasitəsi ilə həyata keçirilir.Veb – kütlələrində informasiyalar saytlar formasında təqdim olunur.

**Sayt** - informasiya toplusunun yerləşmə məkanıdır. Onlar mütəmadi dəyişikliyə məruz qala bilirlər. Sayta yerləşdirilən məlumatların tamlığı və etibarlılığına admnistrator tərəfindən nəzarət olunur. Paylanmış informasiya resurslarının uzaq məsafədən əldə edilməsi, internet vasitəsi əlverişli bir vasitədir.

Verilənlər bazası kimi saytlar müxtəlif əsaslara görə qurulur. Uşaq kitabxanalarında adətən informasiya dolğunluğu ilə illüstrasiyalı saytlar fərqləndirilir. Respublukamızda uşaq və yeniyetmələrə kitabxana-informasiya xidməti göstərən, elmi-metodiki mərkəz fəaliyyət istiqamətlərini quran F.Köçərli adına Respublika Uşaq kitabxanasının elektron saytı da quruluş baxımdan dolğun məlumatlı və maraqlıdır. İnsan fəaliyyətinin müxtəlif sahələrinin informasiya təminatında əsas tendensiya elektron informasiya resurslarının müxtəlifliyinin genişləndirilməsi, kəmiyyət artımı və keyfiyyətcə təkmilləşdirilməsi ilə bağlıdır.

Elektron sənədlərin yaradılması və istifadəsi texnologiyalarının geniş yayılması müasir dünya kitabxanaçılığında önəmli bir işlərdəndir.Uşaq kitabxanası olaraq kitabxanamızda həmin tendensiyalara uyğun olaraq müxtəlif mövzulu və təyinatlı tammətnli sənəd-informasiya toplularının yaradılması sahəsində xeyli iş görülmüşdür. Elektron sənəd-informasiya ehtiyatların yaradılması sahəsində ən əhəmiyyətli iş e-resurs və e-layihə tipli topluların yaradılmasıdır. İndiyədək kitabxanada **11 adda e**-resurs və **10 adda e-layihə yaradılmışdır**.bax

**Kütləvi tədbirlər.**

Kitabxanaya oxucu cəlb etmək üçün kitabxananın daxili tərtibatına üstünlük verilməlidir. Çünki müasir dövrdə kitabxananın zövqlə tərtibatı oxucuların kitabxanaya cəlb edilnməsinə təsir göstərən əsas amillərdən biridir. Kütləvi tədbirlər kitabın, elektron nəşrlərin və digər nəşrlər haqqında oxucuya ətraflı məlumat verir.Belə tədbirlərin təsiri ilə kitabxanaya yeni-yeni oxucuların cəlb edilməsinə şərait yaranır.Bu məqsədlə kitabxanamızın elmi-metodika şöbəsində "**Uşaq kitabxanalarında kütləvi tədbirlərin rolu**" mövzusunda elmi metodiki vəsait işlənmiş, respublikamızda fəaliyyət göstərən uşaq kitabxanalarına göndərilmişdir.




Çap reklam vasitələrindən fərqli olaraq, kitabxanada kiçik yaşlı oxuculara yaradıcılıq imkanları aşılayan kütləvi tədbirlər, proqramlar da həyata keçirilir. Proqramlar əlamətdar yubileylərə və tarixi günlərə, müxtəlif ədəbi simaların yaradıcılığına həsr oluna bilər. Səhərciklərin hazırlanması və keçirilməsində çoxlu oxucu kütləsi iştirak edir, hazırlıq dövründə onlar öz mütaliə mədəniyyətlərini yüksəldir. Hətta mütaliə həvəsi olmayan şagirdlər də işə cəlb olunurlar. Məsələn, Teymur Elçinin həyat və yaradıcılığına həsr olunmuş proqramda kiçik məktəblilər üçün şeir parçası seçilir. Yazıçının həyat və yaradıcılığına həsr olunmuş sərgi tərtib olunur. Belə tədbirlərin təşkili şagirdlər arasında kitabı təbliğ etmək, proqram materialını hərtərəfli zənginləşdirmək, möhkəmləndirmək, şagirdlərə yeni bilik, bacarıq və vərdişlər aşılamaq məqsədi daşıyır. Səhərciklərin səmərəliliyi onun hazırlığından asılıdır. Mövzu müəyyənləşdikdən sonra hazırlıq ən azı 20-30 gün çəkir ki, geniş oxucu kütləsi məlumatlı olur və müəyyən işlər (kitab sərgiləri, plakatlar, rəsmlər, albomlar, bülletenlər və divar qəzetləri, annotasiya və rəylər) görülür. Bu məqsədə nail olmaq üçün qabaqcıl kitabxanalarda bir ay qabaq elan verilir, iş bölgüsü aparılır. Məsələn, aşağıdakı məzmunda elan yazılır: Uşaqların nəzərinə!Mart ayının axırında Teymur Elçinin anadan olması ilə əlaqədar olaraq onun yaradıcılığına dair tədbir keçiriləcəkdir. Kitabxanada bu barədə geniş yaradıcılıq işləri aparılır. Tədbirdə iştirak etməyə tələsin! Səhərcikdə çıxış etmək istəyənlər kitabxana ilə

əlaqə saxlasınlar. Kitabxanaçı həvəskar oxucularla iş bölgüsü – deklamasiyalar, şeirlər, musiqi nömrələri və s. təşkil edir.

Kiçik məktəblilər üçün təşkil olunan bu tədbirlərin proqramı böyük olmamalı, bir saatlıq vaxt üçün nəzərdə tutulmalıdır. Proqramın rəngarəng olması - bədii qiraət və deklamasiyalar nağıl etmələr, diafilm nümayiş etdirmək və s. şagirdlərin diqqətinin mərkəzləşməsinə və davamlılığına kömək edir. Səhərciyin proqramı mövzudan asılı olaraq müxtəlif cür qurula bilər. Adətən onun proqramı aşağıdakı quruluşa malik olur: 1.Giriş sözü; 2.Bədii hissə; 3.Ədəbi oyunlar və ədibin uşaqlar üçün yazdığı tapmacalardan ibarət viktorinalar,Teymur Elçinin sözlərinə yazılmış uşaq mahnıları və s.

IX-XI sinif sagirdlərinin söylədiyi giriş sözü 5-6 dəqiqədən artıq vaxt aparmamalıdır. Giriş sözündə proqramın mövzusu və tədbir iştirakçıları haqqında məlumat öz əksini tapır. Bədii hissədə şagirdlər fəal iştirak edir, onlar şeirlər deyir, səhnələşdirilmiş tamaşalar göstərir, hekayələr oxuyurlar. Səhərciklərə valideynlər, müəllimlər və başqa şəxslərin dəvət olunması şagirdlərin məsuliyyətini və fəallığını artırır. Görüşlər şagirdlər üçün əsl mədəniyyət, kitab, mütaliə bayramına çevrilir. Səhərciklərin səmərəliliyini artırmaq, geniş oxucu cəlb etmək üçün oraya ədəbi oyunların cəlb edilməsinin didaktik və tərbiyəvi rolu böyükdür. Belə oyunlar tədbiri canlandırır və gənc oxucuları düşündürür, məşğul edir və bu yolla da daha çox kitab mütaliə etməyə, daha çox atalar sözü, tapmacalar, bayatılar, qosmalar və s. öyrənib onları belə mərasimlərdə nümayiş etdirməyə həvəs oyadır.

F.Köçərli adına Respublika Uşaq Kitabxanası yaxın qonşu ölkələrin kitabxanaları ilə də əlaqələrini möhkəmləndirmişdir.TİKA-nın (Türkiyə Respublikası Baş nazirlik Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi) birgə layihəsi çərçivəsində keçirilən 2-6 mart 2015-ci il Türk Uşaq Ədəbiyyatı Həftəsi başa çatmışdır. 6 mart 2015-ci il tarixində kitabxananın oxu zalında Türkiyədən kitabxanaya hədiyyə olunan uşaq kitablarının sərgisi, uşaqların türk mədəniyyətini özündə əks etdirən əl işləri sərgisi nümayiş olunmuşdur. Tədbirdə Türkiyə uşaq yazarı Səma Maraşlının kitablarına imza günü keçirilmişdir. TIKA-nın Bakı ofisinin rəhbəri Mustafa Haşim Polat, Səma Maraşlı F.Köçərli adına kitabxanası ilə yaxından tanış olmuş, Nağıl otağında Azərbaycan nağıllarını əks etdirən aplikasıyalı şəkillərlə, kitablarla maraqlanmışlar. Türkiyənin TNT televiziya kanalı ilə uşaqlardan müsahibə götürmüşdür. Həmçinin, uşaqlar oxu zalında kitab və əl işləri nümayiş olunmuş, sərgilərlə tanış olmuş, Türk uşaq ədəbiyyatını təmsil edən kitabların video çarxlı slaydını izləmişlər. Tədbirdə iştirak edən hər bir uşağa Sema Maraşlı öz kitablarını (“Mırmır balığı”, “Pırpır ile hırhır”), kitabxanaçılara isə “Məhəbbətə doğru 40 addım” kitabını imzalayaraq hədiyyə etmişdir. Tədbir iştirakçılarına - Nəsimi rayonundakı 164 saylı məktəbin , Bakı Modern məktəbin şagirdlərinə tədbirin emblemi həkk olunmuş döş nişanı və türk uşaq ədəbiyyatı sərgisindən kitablar, kitabxananın təsis etdiyi “Göy qurşağı” uşaq jurnalı hədiyyə edilmişdir. Tədbirin sonunda kitabxananın direktor müavini tərəfindən Səma xanıma F.Köçərlinin “Balalara hədiyyə”, müxtəlif Azərbaycan nağılları hədiyyə olunmuşdur. Səma xanım kitablara görə və eləcə də sərgi ilə əlaqədar öz təşəkkürünü bildirmiş, uşaqlarla birlikdə xatirə şəkilləri çəkilmişdir.



F.Köçərli adına Respublika Uşaq Kitabxanasında 2015-ci il yanvarın 6-dan başlayan Görmə qabiliyyəti zəif və məhdud uşaqlar üçün Dil və İnformasiya Kurslarının keçirilməsi ilə əlaqədar treninq məşğələlərdə əldə olunan biliklərin təcrübədə möhkəmləndirilməsi ilə bağlı 27 yanvar 2015-ci il tarixində treninq iştirakçıları Ailə və Sosial Politikalar Bakanlığı İstanbul şəhəri üzrə müdir müavini Halis Kuralay ilə birlikdə Bakı şəhəri, Nərimanov rayonu, Sağlamlıq imkanları məhdud olan uşaqlar üçün 5 nömrəli internat məktəbində təcrübə keçdilər. Məktəbdə siniflər A və B qrupları üzrə bölünmüşdü. A qrupu tamamilə görmə məhdudiyyətli, B qrupu isə az zəif görmə qabiliyyətli uşaqlar üçün nəzərdə tutulub. Hər bir treninq iştirakçısı fərqli sinif və qruplarda keçirilən dərslərdə müşahidəçi qismində iştirak etdi, həmçinin uşaqların oyun, musiqi zallarında oldular. Görmə qabiliyyəti zəif və məhdud uşaqlar üçün ən müasir informasiya texnologiyalarının tətbiq olunması ilə bağlı məlumatlar əldə olundu. Ertəsi gün treninq iştirakçılarının müşahidələri müzakirə edildi.



2008-ci ildən başlayaraq F.Köçərli adına Respublika Uşaq Kitabxanası Milli Parkda bilik gününə və uşaq kitabı gününə həsr edilmiş kitab sərgisi təşkil edir.2008-ci ildə birinci dəfə keçirilən uşaq kitabı gününə həsr olunmuş I Uşaq Kitabı – Bilik Festivalı artıq altı ildir ki davamlı keçirilir. Açıq havada ilk dəfə təşkil edilən kitab bayramında aşağıdakı başlıqlarda kitab sərgiləri təşkil edilmişdir:

“Təbiəti sevək, qoruyaq”, “Məktəb proqramına kömək”, “Tarix – keçmişdən gələcəyə”, “İncəsənət – bəşəriyyətin misilsiz sərvəti”, “Mənim kompüterim”, “Nağıllar aləmində”, “Sirli-sehrli nağıllar”, “Azərbaycan – yurdum mənim”, “Sənin maraq dünyan”, “Kitablarda mən hələ, baxıram şəkillərə...”, “Çox oxuyan, çox bilər”, “Azərbaycanın elm və mədəniyyət xadimləri”, “Demokratiya yolunda: kitabxana və oxucu”, “Kitabxanalar informasiya cəmiyyətinin beynidir”, “Elm və texnika – inkişaf tarixi”, “Xarici dilləri öyrənək”, “Sağlam həyat tərzi yaşayaq”, “Qüvvət elmdədir, başqa cür heç kəs, Heç kəsə üstünlük eyləyə bilməz”, “Musiqi – səmimiyyət məbədi”, “Bilikli adamlar uzağı görər, cahilin zəhməti hədərdir, hədər”, “Yeddi rəngli kəmərim” və s. Festivalda sevdikləri nağıl qəhrəmanlarının geyimində muzey mərkəzinin qarşısından A.Şaiq adına Kukla Teatrının yanına tərəf yürüş edən ən yaxşı nağıl qəhrəmanının geyimini və onun haqqında

bildiklərini söyləyən iştirakçı(I, II, III yerlər üzrə) festivalın sonunda mükafatlandırılmışdır.



Kitabxanaya oxucu cəlbinin formalarından biri olan kitab müəllifləri ilə görüşlər oxucular tərəfindən böyük maraqla qarşılanır. 2015-ci il fevralın 12-də Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının oxu zalında xidmət şöbəsinin əməkdaşları –P. Həmidova və L. Nəzərovanın təşəbbüsü ilə tanınmış detektiv əsərlər müəllifi, Azərbaycan Yazıçılar Birliyinin üzvü Elxan Elatlı ilə onu sevən oxucuların görüşü keçirildi. Tədbirdə Universitet tələbələri, məktəb şagirdləri iştirak edirdi.





Ədəbiyyat siyahısı

1. Reklam işinə rəhbərliyin təşkilat formaları // referat
Atakışıyev, Hacıəmi. Reklamın tarixi tarixin reklamı : Uzaq keçmişdən XXI əsrin əvvəllərinə qədər . - Baku : "Şərq-Qərb" Nəşriyyat Evi, 2014. - 264 s.
2. Xələfov, Abuzər Alı oğlu.
Azərbaycanda kitabxana işinin tarixi : Dərslik. 2 hissədə (Ən qədim dövrlərdən XX əsrə qədər) I hissə. - Bakı : Bakı Universiteti Nəşriyyatı, 2004. - 328
3. Xələfov, Abuzər Alı oğlu.
Azərbaycanda kitabxana işinin tarixi : 3 hissədə
II hissə : XX əsrin birinci yarısında Azərbaycanda kitabxana işinin tarixi : dərslik. - Bakı : Bakı Universiteti Nəşriyyatı, 2007. - 552 s.
4. Xələfov, Abuzər Alı oğlu.
Kitabxanaşünaslığa giriş : 3 hissədə. Dərslik I - II hissə. - Bakı : Bakı Universiteti Nəşriyyatı, 2001. - 400 s.
5. Xələfov, Abuzər Alı oğlu.
Kitabxanaşünaslığa giriş : Dərslik: 3 hissədə
III hissə : Kitabxana işi haqqında təlim. - Bakı : Bakı Universiteti Nəşriyyatı, 2003. - 314 s. ; 20 sm

www.clb.az
http://www.bibliograf.ru/issues/
http://lib.ulstu.ru/docs/magazines/mag_13/5state.pdf
www.allbest.ru
http://vss.nlr.ru/archive_catalog